# TIQ-TIQ XANIM



Rəssamlar: Lalə Qasımova və Pərvin Həsənova

Az 2014/854
99/183



Biri var imiş, biri yox imiş, Tanrıdan başqa heç kəs yox imiş. Bir də bir Tıq-tıq xanım var imiş.

Bir gün bu Tıq-tıq xanımın könlünə dost tapmaq düşdü. Geyinib-kecindi, bəzənib-düzəndi, öz evinin qapısından çıxdı və dedi:

– Dağa gedirəm, bağa gedirəm,
Özümə dost tapmağa gedirəm!

Bir odunçu gəlib keçəndə Tıq-tıq xanımı görüb dedi:

– Mənimlə dost olarsanmı?

Tıq-tıq xanım dedi:

– Hirslənəndə, məni nə ilə döyərsən?

Odunçu dedi:

– Bax bu yekə kötüklə vuraram.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası
ARXİV

Ш9(2=Аз)Д-2

Tıq-tıq xanım dedi:

– Yeri, yeri, mən sənin tayın deyiləm.

Odunçu getdi.

Tıq-tıq xanım yenə başladı:

– Dağa gedirəm, bağa gedirəm,
Özümə dost tapmağa gedirəm!

Bir də gördü ki, kürəkçi gəlir.

Kürəkçi dedi:

– Tıq-tıq xanım, mənimlə dost olarsanmı?





Tıq-tıq xanım dedi:

– Hirslənəndə, məni nə ilə döyərsən?

Kürəkçi dedi:

– Bir kürək çalaram, xıncım-xıncım olarsan!

Tıq-tıq xanım dedi:

– Yeri, yeri mən sənin tayın deyiləm!

Kürəkçi də getdi.

Yenə Tıq-tıq xanım dedi:

– Dağa gedirəm, bağa gedirəm,
Özümə dost tapmağa gedirəm!

Bu vaxt siçan oradan keçirdi. Gördü ki, Tıq-tıq xanım bəzənib-düzənib, geyinib-kecinib, özünə zinət verib, evinin qapısına çıxıb.



Al xaradan don geyinib əyninə,
Ucunu qatlayıb salıb çiyninə.
Töktibdür üzünə qara tellərin,
Yuyub tərtəmiz, aparı əllərin.
Çəkib gözlərinə qara sürmələr.
Salıb başına əbrələr, tirmələr,
Xuraman-xuraman ki, rəftar edir.
O rəftara sərvi giriftar edir.
Soluna baxır, gah baxır sağına,
Baxır gah qolundakı qolbağına.
Durub hər yanı sürür naz ilə,
Deyir bu sözü xoş bir avaz ilə:
Dağa gedirəm, bağa gedirəm,
Özümə dost tapmağa gedirəm!

Siçan Solub bəy gəldi Tıq-tıq xanımın yanına, dedi:

– Salaməleyküm, Dozanqurdu Düzxatun, Tıq-tıq xanım, sevgili dostum, ruhirəvanım, canı-cananım,





tabu-təvanım! Kefin, halın? Həmişə beləcə gəzməkdə, seyri-səfada olasan!

Dozanqurdu Düzxatun gözünün altından Siçan Solub bəyə baxıb gördü, amma nə Siçan Solub bəy!

Geyinib əyninə cübbə səncabdan,
Bəzənib-düzənibdir hər babdan.
Atıb dalına quyruğun şir kimi,
Qulaqlarını dik tutub tir kimi.
Gəlir əda ilə, bilmirsən kimdi bu,
Ki hansı vilayətdə hakimdi bu.
Yuvadan çıxıb naz ilə yol gedir,
Döşü ağ, gözü qara, arxası boz.
Dişi incitək, ağzına yoxdur söz.
Qara gözlərin süzdürür hər yana,
Çəkir burnunu ki, iy-miy qana.

Dozanqurdu Düzxatun dedi:

– Ay əleykəssalam, Siçan Solub bəy, top qarabirçək, yerişdə ördək, dişləri mixək, qıçları dirək, hamıdan göyçək, dəxi nə deməek?



Halın, kefin kökdümü? Damağın çağdımı, canın-başın sağdımı?!

Siçan Solub bəy dedi:

– Sağ ol, Tıq-tıq xanım, əzizim-canım, mənimlə dost olarsanmı?

Tıq-tıq xanım dedi:

– Hirslənəndə, məni nə ilə döyərsən?

Siçan Solub bəy dedi:

– Səni döymərəm, döysəm də, quyruğumu qələm eylərəm, batıraram xanımların sürmədanına, gözünə sürmə çəkərəm.

Dozanqurdu Düzxatun dedi ki, onda səninlə dost olaram.

Bir gün Siçan Solub bəy Tıq-tıq xanıma dedi:

– Mən gedim şah evinə, sənə noğul, nabat, şirni və hər cür şirniyyat gətirim. Yığ yanına, könlün istədikcə at ağzına, ye.

Dozanqurdu Düzxatun dedi:

– Get, amma tez gəl. İtib batma.

Siçan Solub bəy dedi:

– Tez gələrəm!



Tıq-tıq xanım oturdu, oturdu, qərarı tutmadı. Fikirləşdi ki, Siçan Solub bəy gəlincə durub onun paltarlarını aparıb Dəvəizi gölündə yuyum, sərib qurudum, gələndə verim, geysin əyninə ki, üst-başı təmiz olsun.

Siçan Solub bəyin paltarını götürüb apardı yumağa. Amma yuyanda ayağı sürüşüb düşdü Dəvəizi gölünə.

Sağa fırlandı, şap düşdü, sola fırlandı, şup düşdü, nə qədər əlləşdisə, çıxa bilmədi. Hər nə qədər çapaladısa,



qurtula bilmədi. Dəvəizi gölündə az qaldı, çox qaldı, gördü ki, bir neçə atlı gedir. Başladı çağırmağa:

Tappır-tuppur atlılar,
Qolları qanadlılar.
Şah evinə gedərsiz,
Siçan bəyə deyərsiz:
Tıq-tıq püstə xanım,
Düşübdü dərin gölə,
Boğulur bəstə xanım.

Atlılar o yana, bu yana baxdılar, heç kəsi görmədilər. İstədilər getsinlər, Tıq-tıq xanım yenə həmin sözləri ilə onları çağırmağa başladı. Atlılar baxıb gördülər ki, onları çağıran bir dozanqurdudur, Dəvəizi gölündə boğulur.

99/83

Dozanqurdu Düzxatun dedi:

Gedin deyin Siçan bəyə,
Börkü dəlik Solub bəyə:
Saçı uzun Saray xanım,
Donu uzun Daray xanım,
Dozanqurdu Düzxatun
Paltar yuduğu yerdə
Düşübdü dərin gölə,
Özünü tez yetirsin,
Məni buradan qurtarsın!

Atlılar çox təəccüb edib, getdilər şah evinə, gördüklərini orada nağıl elədilər.



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bu vaxt Siçan Solub bəy şirni sandığının içində gəzirdi, bu xəbəri eşidib qaçdı, özünü tez Tıq-tıq xanıma yetirdi.

Gəlib gördü ki, Tıq-tıq xanım Dəvəizi gölündə boğulur. Az qalıb ki, tələf olsun.

Cəld əlini uzadıb dedi:

– Əlini mənə, bəstərəcik!

Dozanqurdu dedi:

– Yeri, mənciyəz səndən küstərəcik!

Siçan Solub bəy yenə dedi:

– Əlini mənə, bəstərəcik!

Tıq-tıq xanım cavab verdi:

– Yeri, mənciyəz səndən küstərəcik!

Siçan üçüncü dəfə dedi:

– Əlini mənə, bəstərəcik!

Dozanqurdu dedi:

– Yeri, mənciyəz səndən küstərəcik!

Axırda siçanın acığı tutdu, çevrildi ki, getsin, Tıq-tıq xanım onun suya düşən quyruğundan tutub xilas oldu.

Amma nə fayda, şıltaqlığının ucbatından yenə tək qaldı!

Yazıq Dozanqurdu

**Düzxatun!**





M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası
ARXİV

Az 2014
854



QANUN
NƏŞRİYYATI

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mob.: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

"Əli və Nino" Nəşriyyatı
Bakı, Azərbaycan
Z.Tağıyev, 19
Tel.: (+994 12) 493-04-12
e-mail: info@alinino.az
www.alinino.az

ISBN 978-9952-26-443-2

Qiyməti: 1 ₼

99183